

# Heydər Əliyev İli 2023

# Şuşada beynəlxalq elmi-praktiki konfrans

**Qurumun Mətbuat xidmətinin məlumatına görə, Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100-cü ildönümünə həsr olunmuş "Paylayıcı şəbəkələrin rəqəmsallaşdırılmasının dünəni, bu günü, sabahı" adlı beynəlxalq elmi-praktiki konfrans keçirilib. "Azərişıq" ASC-nin Şuşada təşkil etdiyi konfransdan öncə tədbir iştirakçıları Fəxri xiyabanda Ulu Öndər Heydər Əliyevin məzarını ziyarət ediblər.**




Konfransda dövlət qurumlarının rəsmiləri ilə yanaşı, Türkiyə, Almaniya, Belçika, Rusiya, Qırğızıstan və Tatarıstan Respublikasından gələn nümayəndələr də iştirak ediblər. Konfransı giriş sözü ilə açan "Azərişıq" ASC-nin sədri Vüqar Əhmədov bildirib ki, Ümummilli Lider Heydər Əliyevin 1970-1980-ci illərdə elektroenergetika sahəsində həyata keçirdiyi genişmiqyaslı islahatlar indi də bu sistemdə və şəbəkələrin rəqəmsallaşdırılmasında sağlam təməl rolunu oynayır. Azərbaycan Prezidentinin Şuşa rayonunda xüsusi nümayəndəsi Aydın Kərimov Şuşada keçirilən bu beynəlxalq elmi-praktiki konfransı tarixi hadisə adlandırıb. Daha sonra Ümummilli Lider Heydər Əliyevin Azərbaycanın elektroenergetika sahəsindəki rolundan bəhs edən sənədli film nümayiş etdirilib.

Konfrans iştirakçılarına işğaldan azad edilmiş ərazilərdə dövlət başçısının xüsusi diqqət və nəzarəti altında aparılan genişmiqyaslı yenidənqurma işləri, elektroenergetika sahəsinin müasir tələblər əsasında qurulması haqqında geniş məlumat verilib.

Tədbirin iştirakçıları arasında yer alan keçmiş mer Oleq Budarqin maraqlı faktı açıqlayıb. O bildirib ki, sovet dövründə siyasi hakimiyyətdə olan Heydər Əliyev tərəfindən Narinsk şəhərinin meri təyin edilib. Tədbirin əhəmiyyətinə toxunan Oleq Budarqin Şuşada keçirilən bu beynəlxalq konfransı Davos Dünya İqtisadi Forumu ilə müqayisə edib.

Konfrans iştirakçılarına "Qarabağ - "Yaşıl Enerji" zonası" tələblərinin beynəlxalq normalarının müasir texnologiyalar və innovativ həllərlə tətbiqi, elektroenergetika sistemi və şəbəkələrində ekoloji amillərin nəzərə alınması, həyata keçirilən mühüm texniki-iqtisadi tədbirlər haqqında da ətraflı məlumat verilib. Geniş fikir mübadiləsinin aparıldığı tədbirdə işğaldan azad edilmiş ərazilərdə rəqəmsallaşma proseslərinin beynəlxalq standartlara uyğunlaşdırılması, müasir şəbəkə quruculuğu indikatorlarının müəyyən edilməsi və tətbiqi istiqamətində müştərək metodik vəsaitlər və elmi araşdırmaların hazırlanması qərara alınıb.

Konfransdan sonra Şuşa Rəqəmsal İdarəetmə Mərkəzinə ekskursiya təşkil edilib, tədbir iştirakçılarını maraqlandıran suallar ətraflı cavablandırılıb.

Elektrik şəbəkələrinin rəqəmsallaşdırılması istiqamətində hazırda atılan addımlar və gələcəkdə həyata keçiriləcək islahatların elmi-texniki və iqtisadi aspektlərinin beynəlxalq ekspertlərlə mütəmadi təcrübə mübadiləsinin, iştirakçı ölkələrdə təsdiq edilmiş tematikalar üzrə fikir mübadilələrinin təmin edilməsi haqqında razılıq əldə olunub, "Beynəlxalq energetiklərin Şuşa təşəbbüsü" adlı sənəd hazırlanaraq konfrans iştirakçılarına təqdim edilib.